*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 448-452*

https://doi.org/10.62837/2026.2.448

**CƏBİYEVA AYNUR ŞİRZAD QIZI**
**Bakı Slavyan Universiteti (BSU)**
**aynurjabiyeva@gmail.com**

# "BREMEN MUSİQİÇİLƏRİ" VƏ AZƏRBAYCAN NAĞILLARINDA ƏMƏKDAŞLIQ MOTİVİNİN OXŞARLIQLARI

**Xülasə:**

Xalq nağılları alman və Azərbaycan ədəbiyyatında mühüm yer tutur. Alman nağıllarında xüsusilə Qrimm qardaşlarının nağıllarından bəhs etmək lazımdır. Qrimm qardaşların nağılları istər böyüklər, istərsə də kiçik yaşlı uşaqlar üçün mühüm yer tutur. Qrimm qardaşların nağıllarında səbr etməyi, dostların birlikdə hərəkət etməsini, ədalətli olmağı, yaxşılıq etməyi, ağlın və iradənin gücündən bütün nağıllarında əsas mövzulardan biridir. Əsas məsləhətləri isə heç bir zaman ümüdünü itirməməkdir. Bu məqalədə əsas Bremen musiqiçiləri nağılından bəhs edilib. Nağılda əsasən dostluq, birlikdə əməkdaşlıq etməyi tövsiyyə edilir. Belə ki, birlikdə hərəkət edildiyi zaman, problem nə olursa olsun, bütün maneələri dəf etmək mümkündür. Bununla yanaşı bu nağılın mövzusuna uyğun Azərbaycan nağılı olan "Dörd dost" nağılından qeyd edilib. Azərbaycan nağılında da heyvanların birgə öz güclərini birləşdirərək çətinliklərdən azad olurlar. Hər iki nağılda çətinlikdən sonra heyvanlar dostları ilə birlikdə xoşbəxt həyat yaşayırlar.

**Açar sözlər:** xalq nağılı, həmrəylik, ədalət, birlik olmaq, ağlın gücü, qarşılıqli etimad, heyvan nağılları

Xalq nağılları hər bir etnosun dünyagörüşünü, sosial münasibətlərini, etik dəyərlərini və ümumi yaddaşı əks etdirən ən qədim mədəni mətnlərdən hesab olunur. Xalq nağılları xalq ruhunun ən saf ifadəsidir (Grimm, J., Grimm, W. 1812. Vorwort). Folklor mətnlərində insan cəmiyyətinin davranış modelləri çox vaxt antropomorfik heyvanlar vasitəsilə təqdim edilir və bu heyvan obrazları hər ölkənin mədəniyyətini özündə təcəssüm etdirir. Alman folklorunun ən çox tanınmış nümunələrindən biri olan Qrimm qardaşlarının "Bremen Musiqiçiləri" nağılı da məhz bu prinsiplə yazılmışdır. Nağılın süjetində müxtəlif xarakterli heyvanların birlikdə həm təhlükəni dəf etməsi, həm də mövcud sosial sistemdən uzaqlaşaraq özləri üçün yeni həyat yaratması əməkdaşlığın, həmrəyliyin və qarşılıqlı etimadın mədəni simvoluna çevrilmişdir.

Azərbaycan folklorunda da heyvan nağılları əsas yer tutur və xalqın sosial-estetik düşüncəsinin formalaşmış təzahürlərindən biri kimi çıxış edir. "Dörd dost", "Qurd, keçi və oğlak", "Tülkü ilə canavar", "Şir və digər heyvanlar" kimi nağıllarda heyvan obrazları insan cəmiyyətinin kiçik modelini yaradır; burada dostluq, birlikdə mübarizə, dəstək, təhlükə qarşısında birlik, fərqlərin bir-birini tamamlaması kimi dəyərlər mərkəzi xətt kimi işlənir. Bu baxımdan Azərbaycan heyvan nağılları ilə "Bremen Musiqiçiləri" arasında diqqətçəkən kulturoloji bənzərliklər mövcuddur. Hər iki

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 448-452*

folklor ənənəsində əməkdaşlıq və həmrəylik motivi təsadüfi şəkildə deyil, mədəniyyətin öz strukturundan, ictimai münasibətlərdən və kollektiv dünyagörüşündən qaynaqlanır. Alman nağılında cəmiyyətdən uzaqlaşdırılan heyvanların bir araya gəlməsi daha çox sosial ədalətsizlikdən qaçışın və yeni birlikdə həyat modelinin yaradılması simvolu kimi təqdim olunursa, Azərbaycan nağıllarında birlik və dostluq motivi daha çox ailə, qohumluq və kənd icması kimi kollektiv kollektiv quruluşun davamı şəklində ortaya çıxır. Buna baxmayaraq, hər iki xalqın nağıl ənənəsində əməkdaşlıq həm sosial norma, həm də etik prinsiplərin əsas ifadəsi kimi dəyərləndirilir. Məqalədə Bremen Musiqiçiləri ilə Azərbaycan heyvan nağıllarında əməkdaşlıq, birlik motivinin kulturoloji oxşarlıqları müqayisəli şəkildə araşdırılır; heyvan obrazlarının funksiyası, birlik ideyasının mədəni məna yükü, təhlükə qarşısında müttəfiqlik modeli və birlik nəticəsində qurulan sosial harmoniya aspektləri təhlil olunur. Məqsəd müxtəlif coğrafiyalara və tarixi-mədəni şəraitə malik iki xalqın folklorunda ortaq olan kollektivlik ideyasının mədəni əsaslarını aşkarlamaqdır. "Bremen Musiqiçiləri" nağılında fərqli xüsusiyyətli heyvanların eşşək, it, pişik və xoruzun çətinliklər səbəbilə öz əvvəlki sahiblərindən uzaqlaşması və qeyri-ixtiyari şəkildə bir araya gələrək bir məqsəd uğrunda birləşməsi hadisələrin əsas vacib xəttini təşkil edir. Bu birləşmənin təməlində yalnız yaşayış uğrunda mübarizə deyil, həm də bir-birini bütövləşdirən xarakter və bacarıqların harmoniyası dayanır. Eşşəyin gücü, itin mühafizəkarlığı, pişiyin sürətliliyi və xoruzun xəbərdarlıq bacarığı birlikdə hərəkəti etməni mümkün edir. Müəyyən çətinliklərlə baş verəndə bu heyvanların yalnız olduğu zaman gücsüz olduğu, amma birləşdikləri zaman güclənmələri alman folklorunda kollektivliyin əsası kimi qəbul edildiyini göstərir.

Bu nağılda əhvalat dəyirmançının ulağı ilə başlayır. Ulaq uzun illərdi dəyirmanda işləyir, belində un taylaları daşıyırdı. Günlərin bir günü dəyirmançı görür ki, ulağı artıq qocalıb və buna görədə onu evdən qovdu. Lakin ulaq bu hadisəyə görə məyus olsada, o yeni qərar aldı. Belə ki, o fikirləşdi ki, Bremen şəhərində çoxlu çalğıcı var. Buna görədə oda Bremendə çalğıcı olaraq həyatına davam etmək istədi. Deməli ulaq az getdi, çox getdi. Qarşısına it çıxdı və it çox məyus görsənirdi. Məyus olmasının səbəbi isə uzun illərdi ki, ovçunun yanında yaşayırdı və onun üçün çöllərdə, bataqlıqlarda ov quşlarının arxasınca qaçıb. Lakin qocaldığı üçün artıq əvvəki kimi işləyə bilmir. Buna görə də sahibi onu artıq öldürmək istəyir. Ulaq təklif etdi ki, gedək Bremendə çoxlu çalğıçılar var bizdə gedək həm oxuyaq, həm də sən təbil çalarsan. Mən də həm oxuyaram, həm də gitara çalaram. Yol boyu it hürürdü, ulaqda anqırırdı. Qarşılarına pişik çıxdı. Pişikdə məyus görsənirdi və ondanda məyus olmasının səbəbini soruşdular. Pişik isə belə dedi: Sahibimin yanında neçə illərlə siçavul, siçan tutmuşam amma indi qocaldığıma görə dişlərim kütləşib və buna görədə sahibim məni çayda batırmaq istəyir. Ulaq pişiyə də eyni təklifi etdi, gedək Bremendə çoxlu çalğıçılar var bizdə gedək həm oxuyaq, həm də skripka çalarsan. Az getilər, çox getdilər qarşılarına xoruz çıxdı. Xoruzda onlar kimi məyus görsənirdi.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 448-452*

Onun məyus olma səbəbi isə qocalıqdan deyildi. Xoruzun sahibigilə qonaq gələcəkdi və buna görə də xoruzu kəsib, şorba bişirmək istəyirdilər.

Onlar bir xeyli yol getdilər. Yol boyu ulaq uluyur, it hürür, pişik miyolduyur, xoruz banlıyırdı. Çox yol qət etdikdən sonra onlar yorulduqları üçün meşədə dayanırlar və istirahət etməyə başlayırlar. Dayandıqları zaman onlar işiq görürlər və iş belə olduqda onlar işiq gələn yerə getməyə qərar verdilər. Onlar ev və qid tapmaq arzusunda idilər. Belə də onlar ev tapdılar amma ev boş deyildi. Belə qərara gəldilər ki, onlar evdəki quldurları qorxutsunlar və evdən uzaqlaşdırsınlar. Onlar quldurları qorxudub, evə özləri daxil oldu. Onlar istədikləri qidaları yedilər və yatdılar. Quldurlar evə qayıtmaq istədi amma o səs çıxardan varlıqların kim olduğun bilmədilər. Buna görə də onlar içlərindən bir nəfəri seçib evə göndərdilər. Evə getdikdə quldur sevindi elə bildi evdə heç kim yoxdu. Amma quldurun gözlədiyi kimi olmadı. Heyvanlar eyni vaxtda quldurun üstünə getdi. Pişik onu cırmaqladı, it onun ayağına yapışdı, ulaq təpik atdı, xoruz isə banlamağa davam etdi. Quldurlar dəhşət qorxdular və bir dəfənlik meşədən qaçdılar. Bremen çalğıçıları bu evdə xoş, şad və hürrəm yaşamağa başladılar (Grimm, J. və Grimm, W. 2020, s. 140–145).

Azərbaycan nağıllarında da bənzər şəkildə birliyin və əməkdaşlığın həyati vacibliyi vurğulanır. “Dörd dost” nağılında fərqli xarakterli heyvanların eyni yerdə yaşamaları və bir-birinə kömək olması kollektiv hərəkət etmənin ənənəvi folklor təcəssümüdür. Burada da hər bir heyvanın özünəməxsus qabiliyyəti var və müxtəlif güclər bir araya gəldikdə təhlükə uzaqlaşmış olur. Bu bənzərlik göstərir ki, müxtəlif mədəniyyətlərdə heyvanlar vasitəsilə insan cəmiyyətinin ideal modeli yaradılır. Fərqliliklər qarşıdurma deyil, tamamlayıcı mənbə kimi təqdim olunur. Həm alman, həm də Azərbaycan folklorunda birgə fəaliyyət tək praktik vaciblik deyil, həm də mənəvi dəyər kimi vəsf edilir. “Qurd, keçi və oğlak” nağılında keçi və oğlağın qurdun hədə-qorxusundan qurtulması onların şüurlu münasibət və birlikdə hərəkəti sayəsində mümkündür. Vahimə ilə üz-üzə qalanda birlikdə fikirləşmək, bir-birinə güvənmək və qüvvələri birləşdirmək hər iki xalqın nağıl ənənəsində müsbət sonluğa aparan əsas yolu təşkil edir. Məhz bu səbəbdən əməkdaşlıq motivi sırf süjetin inkişaf funksiyasını daşımır, həm də sosial həyatın mədəni dəyərlərinə aid mesaj verir.

“Bremen Musiqiçiləri” nağılında heyvanların quldurların yaşadığı evə gtməsi və birlikdə hərəkət etməsi və onları qorxudub qovması əsas kulminasiya nöqtəsidir. Nağıldakı obrazların uğur qazanması təkcə fiziki güc deyil, həm də birlikdə fəaliyyət nəticəsində baş verir. Bu süjet xətti Azərbaycan nağıllarında da bir neçə dəfə rastlanan birgə mübarizə motivi ilə üst-üstə düşür. Məsələn, “Dörd dost” nağılında dostlar birlikdə bir-birinə kömək edir və yaranan problemlərin üstəsindən gələ bilirdilər. Bele ki, nağıl Titi adlı tısbağa ilə başlayır. Titi meşənin böyük olduğunu və qorxulu olduğunu deyir. Buna görə də, Titi onunla oynayan və ona kömək edən bir dost axtarmağa başladı. Titi biraz getmişdi ki, qarşısına Sisi adlı siçan çıxdı və o ondan niyə belə çaşqın olduğunu soruşdu. Titi isə özünə dost axtardığını dedi və

beləcə Titi Sisiylə dost oldu. Onlar biraz getmişdilər ki, Həncəl adlı qarğa və Zuli adlı ceyranla qarşılaşdılar. Bu qarşılaşmadan sonra onlar 4 dost olaraq dəvam etdilər. Onlar birlikdə yaşamağa başladılar. Lakin günlərin bir günü Zuli evdən çıxdı. Ot otladı və su içdikdən sonra evə geri qayıtmaq istədi. Amma o evə qayıdanda tora ilişib qaldı. Bir neçə saat keçdi amma Zuli evə qayıtmadı. Dostlar Zuliyə görə narahat oldular və dərhal Zulini axtarmağa getdilər. Amma Titi isə evdə qaldı amma Titi də Zuli üçün nigaran idi. Həncəl göydə uçduğu zaman gördü ki, Zuli tora ilişib və gördüklərini dərhal Sisiyə dedi. Onlar Zuliyə kömək eləməyə getdilər. Sisi tez ipləri gəmirdi və beləcə Zuli tordan azad oldu. Dostlar bir yerdə evə qayıtdılar amma onlar gördülər ki, Titi evdə yoxdur. Zuli dedi ki, o mənim üçün narahat olub və məni axtarmağa gedib. Həncəl və dostları birgə Titini axtarmağa getdilər. Onlar gördülər ki, Titi tora düşüb və ov tulası da torun yanındadır. Sisi isə belə fikrə gəldi. Artıq günəş batıb və hava qaranlıqdır. Gəlin hamımız ov tulasının yanında vahiməli səslər çıxardaq və o qorxub qaçsın. Hər şey onların planladığı kimi oldu. Ov tulası qorxdu və qaçdı. Sisi isə torun iplərini gəmirməyə başladı. Nəhayət, Titi tordan xilas oldu və o, dostlarına təşəkkür etdi. Beləcə dostlar xoşbəxt halda evə qayıtdılar. Onlar çox xoşbəxt idilər. Bu hadisədən sonra onlar birlikdə firəvan həyat yaşadılar ("Dörd dost", 2023, Azertag.az.).

**Nəticə.** Hər iki folklor nümunəsində heyvan obrazları vasitəsilə cəmiyyətin davranış modeli birlik, qarşılıqlı güvən, başqa-başqa xüsusiyyətlərin tamamlayıcı gücə çevrilməsi və birgə mübarizənin prioriteti ilə ifadə olunur. Bu bənzərliklər göstərir ki, əməkdaşlıq motivi cürbəcür mədəniyyətlərdə hərtərəfli folklor dəyəri kimi formalaşmışdır və həm alman, həm də Azərbaycan xalq təfəkküründə sosial həmrəyliyin mühümlüyünü əks etdirən mədəni kod rolunu oynayır.

Belə nağıllar əməkdaşlıq motivinin əsas nümunələrindəndir. Hər bir heyvanın fərqli xüsusiyyəti birləşərək güc yaratmaq üçün istifadə edilir. Nağıl həm sosial, həm də etik mesaj verir. Birlikdə hərəkət etmək və müxtəlif bacarıqları tamamlayaraq məqsədə çatmaq və təhlükə qarşısında bərabərlik sərgiləmək vacibdir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

**Azərbaycan dilində**

1. Alman Ədəbiyyatı Antologiyası, Bakı, Şərq-Qərb, 2009
2. Dörd dost. (2023, 12 may). Azərtac Uşaq Bilik Portalı. https://portal.azertag.az/az/node/27969 (İstifadə tarixi: 21.12.2025)

**Alman dilində**

3. Grimm, J., & Grimm, W. Kinder- und Hausmärchen. Vorwort. Berlin: Realschulbuchhandlung, 1812
4. Grimm, J., & Grimm, W. Grimms Märchen. Stuttgart: Esslinger Verlag, 2020, s. 140–145.

## «БРЕМЕНСКИЕ МУЗЫКАНТЫ» И СХОДСТВА МОТИВА СОТРУДНИЧЕСТВА В АЗЕРБАЙДЖАНСКИХ СКАЗКАХ

**Резюме**

Народные сказки занимают важное место в немецкой и азербайджанской литературе. В немецких сказках особенно стоит упомянуть сказки братьев Гримм. Сказки братьев Гримм важны как для взрослых, так и для детей младшего возраста. В их сказках основные темы включают терпение, совместные действия друзей, справедливость, доброту, силу разума и воли. Главный совет – никогда не терять надежду. В этой статье рассматривается, прежде всего, сказка «Бременские музыканты». В сказке рекомендуется дружба и совместное сотрудничество. Когда действуют вместе, любые трудности можно преодолеть. Кроме того, для сопоставления приведена азербайджанская сказка «Четыре друга». В этой сказке животные объединяют свои силы и преодолевают трудности. В обеих сказках после преодоления трудностей животные живут счастливой жизнью вместе со своими друзьями.

**Ключевые слова:** народная сказка, солидарность, справедливость, единство, сила разума, взаимное доверие, сказки о животных

**AYNUR JABIYEVA**

## “THE BREMEN TOWN MUSICIANS” AND SIMILARITIES OF THE COOPERATION MOTIF IN AZERBAIJANI FOLK TALES

**Summary**

Folk tales hold an important place in German and Azerbaijani literature. In German tales, it is especially important to mention the tales of the Brothers Grimm. The tales of the Brothers Grimm are significant for both adults and young children. The main themes in their tales include patience, friends acting together, justice, kindness, and the power of mind and will. The main advice is never to lose hope. This article mainly discusses the tale of “The Bremen Town Musicians.” The tale emphasizes friendship and collaborative cooperation. When acting together, it is possible to overcome any obstacles. Additionally, the Azerbaijani tale “Four Friends” is mentioned in relation to the theme. In the Azerbaijani tale, animals combine their strengths to overcome difficulties. In both tales, after facing challenges, the animals live happily together with their friends.

**Keywords:** folk tale, solidarity, justice, unity, power of mind, mutual trust, animal tales

**Rəyçi: BSU-nun Roman-german filologiyası kafedrasının dosenti, fil.f.d. Səlimova Fatimə Hüseyn qızı**